# "İrandakı etirazlar ona görə inqilab şəklini ala və nəticəyə çata bilmədi ki..."

**"İranda baş verənlər inqilabın xalq işi olması kimi sadəlövh yanaşmaları bir daha kökündən çürütdü. Tramp və ya hər hansı maraqlı güc dəstək versəydi və İranda rejim dəyişsəydi, tarix belə yazacaqdı: İran xalqı ayağa qalxdı və narazı olduğu rejimi devirdi. Dəstək olmadı deyə inqilab və ya xalqın etirazı rejimi daha da gücləndirdi. Çünki idarəetmədəki bütün boşluqlar kəşf olundu. Suiqəsdçi maraqlar dəstək vermədikdə inqilab xalqı, sadəcə, öldürür".**

Adalet.az xəbər verir ki, bunu yazıçı Aqşin Yenisey deyib.

"Nə Böyük Fransız inqilabı, nə rus proletar inqilabı, nə də digər hər hansı inqilab xalq gücüylə gerçəkləşmədi. Hər inqilabın gizli müəllifləri vardı. İrandakı etirazlar ona görə inqilab şəklini ala və nəticəyə çata bilmədi ki, müəllifləri daha tez istədiklərinə nail oldular.

Yəni xalqın tarix yazmaq gücü və bacarığı yoxdur. Tarixi hadisənin də hər hansı bir əsər kimi müəllifi və ya müəllifləri var.

İran türkləri XX əsrdə iki dəfə inqilab edib acı dadını bilirdilər deyə çox da canfəşanlıq etmədilər və haqlı olduqları üzə çıxdı. Çünki inqilabda əsas gücün xalqda deyil, hadisələrin müəllif və ya müəlliflərində olduğunu gözləriylə görmüşdülər.Bu elə bir məsələdir ki, bu məsəldə bilməmək xoşbəxtlik gətirmir, adamı öz bədbəxtliyindən də məhrum edir", - deyə o, bildirib.

**Vasif**

Ədalət. - 2026.- 23 yanvar(№3).- S.6.